# Müstəqillik xalqımızın böyük tarixi nailiyyətidir

Müstəqillik xalqımızın milli sərvətidir. Hər il istiqlaliyyət günümüzün ölkəmizdə təntənəli şəkildə bayram edilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəm təməllər üzərində quruculuğunu və əbədi olduğunu bir daha sübut edir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, dövlət müstəqilliyimizin etibarlı əsasları 1993-cü ilin oktyabrından sonrakı dövrdə ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında, onun qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində yaradılıb. Daxili sabitliyin bərqərar olması, dövlətçilik ənənələrinin yaradılması, demokratik-hüquqi islahatların həyata keçirilməsi, ölkəmizin zəngin təbii ehtiyatlarından Azərbaycanın maraqlarına uyğun istifadə edilməsi, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər ölkəmizin müstəqilliyinin dönməzliyinin, əbədiliyinin etibarlı əsaslara malik olduğunun nəticəsidir.

Bu gün hər bir azərbaycanlı azad ölkənin vətəndaşı olmağı ilə fəxr edir. Müstəqil dövlətimizin yaranmasında ən böyük zəhməti isə məhz ümummilli liderimiz Heydər Əliyev çəkib. Bugünkü azad və suveren respublikamız ulu öndərimizin şah əsəridir. Müstəqilliyimizin memarının siyasi müdrikliyi və qətiyyəti sayəsində ölkədə vətəndaş həmrəyliyi bərqərar oldu, əmin-amanlıq və sabitlik bərpa edildi. Azərbaycan 18 oktyabr 1991-ci ildə rəsmən suveren dövlət elan olunsa da, 1993-cü ilin iyun ayına qədər onun əbədiliyinə təminat yox idi. Başımıza gətirilən müsibətlər, hakimiyyət uğrunda mübarizə, hərc-mərclik, anarxiya, xaos, bir milyondan artıq insanın öz ata-baba yurdlarından didərgin düşməsi tariximizin acı ibrət dərsləridir.

Artıq bu reallıqdır ki, biz azad xalqıq, azad respublikayıq. İtkilər bahasına başa gələn dövlət müstəqilliyi çaxnaşmalara məruz qalsa da, iflasa uğramadı, ulu öndərimizin səyi və bacarığı sayəsində yaşadı, yaşayır və əsrlər boyu yaşayacaqdır. Son dərəcə böyük iradə, mübarizə bahasına əldə etdiyimiz müstəqilliyimiz daimidir. Müstəqil ölkəmizin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulduğu üçün sarsılmazdır. Hamımıza yaxşı məlumdur ki, ümummilli liderimizin ən böyük arzusu və məqsədi güclü, müstəqil, demokratik və dünyəvi dövlət qurmaq idi. O, bu məqsədinə nail oldu, nəsillərə ən qiymətli bir miras qoydu. Azərbaycanın öz müstəqilliyini bərpa etməsi, onu hifz edərək saxlaması, müasir dövlətçilik mexanizminin yaradılması Heydər Əliyev kimi güclü bir şəxsiyyətin adı ilə bağlıdır. Bu gün müstəqil Azərbaycanın hər bir uğurunun əsasında ulu öndərimizin imzası durur. Azad, müstəqil yaşamaq, özünün milli dəyərlərinə, maddi sərvətlərinə sahib olmaq hər bir xalqın, millətin əzəli, müqəddəs arzusudur. Tarixi təcrübə göstərir ki, müstəqilliyi əldə etmək asandır, onu qorumaq, inkişaf etdirmək isə çətin və şərəfli işdir.

1992-1993-cü illərdə ölkəmizdə baş verən hakimiyyət dəyişikliyi, müstəqilliyinin ilk illərini yaşayan Azərbaycanın başının üstünü almış vətəndaş müharibəsi və Ermənistanın təcavüzü müstəqilliyimizin itirilməsi təhlükəsini artırmışdı. Lakin xalqın təkidli tələbi və çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin yürütdüyü müdrik, uzaqgörən siyasət nəticəsində üzləşdiyimiz təhlükələrin qarşısı alındı, bütün çətinliklər dəf edildi.

Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanılması və inkişafı üçün taleyüklü problemləri həll etdi. Atəşkəsə nail olundu, ordu quruculuğu işlərinə başlandı. Dünya dövlətlərinin ölkəmizdə gedən müsbət proseslərə marağı artdı. Uğurlu islahatların bünövrəsi qoyuldu. Ölkəmiz məhz ulu öndərin titanik səyləri nəticəsində inkişaf yolunu tutdu. Respublikamız beynəlxalq təşkilatlara üzv qəbul edildi. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsi oldu. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən ölkəmiz eyni zamanda qlobal məkanda özünün statusunu müyənləşdirməyə nail oldu.

Bu gün çox sevindirici haldır ki, ümummilli liderimizin ideyaları yaşayır, onun siyasi kursu Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Müstəqil Azərbaycan günbəgün tərəqqi edir, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilir.

**Cavid HAŞIMOV,**
**"Bakıelekrtiktökmə" ASC-nin idarə heyətinin sədri.**